# Yeni məktəb, keyfiyyətli mühit

## *Təhsil naziri Emin Əmrullayev Şəmkir və Tovuz rayonlarında səfərdə olub*

### Şəmkir rayon Zəyəm-Cırdaxan kənd 2 nömrəli tam orta məktəbin açılışı olub



Aprelin 21-də təhsil naziri Emin Əmrullayev Şəmkir rayonuna səfər edib. Səfər çərçivəsində yeni tikilmiş Şəmkir rayon Zəyəm-Cırdaxan kənd C.Abdiyev adına 2 nömrəli tam orta məktəbin açılış mərasimi keçirilib.

Açılış mərasimində təhsil naziri Emin Əmrullayev, Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev, Şəmkir Rayon Təhsil Şöbəsinin müdiri Qüdrət Əliyev və digər qonaqlar iştirak ediblər.

Mərasimdən əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Açılış mərasimində bildirilib ki, yeni tikilmiş məktəb 432 şagird yerlikdir. 17 sinif otağından ibarət ümumi təhsil müəssisəsində 3 laboratoriya, 2 texnologiya, informatika, çağırışaqədərki hazırlıq kabineti, məktəbəhazırlıq otağı, 216 nəfərlik akt zalı, idman zalı, kitabxana və 92 yerlik yeməkxana fəaliyyət göstərəcək.

Açılışdan sonra iştirakçılar məktəbdə yaradılmış şəraitlə tanış olublar.

### Şəmkirdə STEAM Mərkəzi istifadəyə verilib



⇦ **Əvvəli səh.1**

Şəmkir STEAM Mərkəzi bütün yaş qruplarının istifadəsi üçün nəzərdə tutulub və STEAM məzmununa uyğun lazımi innovativ texnologiyalarla tam təmin olunub. Mərkəzdə yaradılmış imkanlardan sözügedən məktəblə yanaşı, regionun digər məktəblərinin şagird və müəllimləri də istifadə edə biləcəklər. İl ərzində 2500-3000-ə yaxın şagird və tələbənin mərkəzdə müxtəlif modullar üzrə təlimlərdə iştirakı gözlənilir.

Qeyd edək ki, STEAM layihəsinin hər kəsə əlçatanlığının təmin edilməsi, həmçinin bu istiqamətdə xüsusi bilik və bacarıqlara malik təhsilalanların dərsdənkənar fəaliyyətinin həyata keçirilməsi, dünya səviyyəli yarış, müsabiqə və olimpiadalara hazırlığının təşkili məqsədilə ölkə üzrə müxtəlif regionlarda STEAM Mərkəzləri yaradılmaqdadır.

### Tovuzda STEAM Mərkəzinin açılışı olub



Aprelin 21-də təhsil naziri Emin Əmrullayev Tovuz rayonuna səfər edib. Səfər çərçivəsində Tovuz rayonu Y.Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbində STEAM Mərkəzinin açılış mərasimi keçirilib.

Açılış mərasimində təhsil naziri Emin Əmrullayev, Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, Tovuz Rayon Təhsil Şöbəsinin müdiri Elmira Mürşüdlü və digər qonaqlar iştirak ediblər.

Mərasimdən əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Açılış mərasimində iştirak edən qonaqlar Mərkəzdə şagirdlər üçün yaradılmış şəraitlə tanış olub.

Bildirilib ki, STEAM Mərkəzində təhsilalanların "Robotics", "Art", "Science", "STEAM Kids", CNC və 3D çap, VR, mühəndislik, pilotsuz uçuş aparatları (dron) istiqamətləri üzrə fəaliyyət göstərmələri üçün nəzərdə tutulmuş sahələr var.

Mərkəz bütün yaş qruplarının istifadəsi üçün nəzərdə tutulub və STEAM məzmununa uyğun lazımi innovativ texnologiyalarla tam təmin olunub. Mərkəzdə yaradılmış imkanlardan sözügedən məktəblə yanaşı, regionun digər məktəblərinin şagird və müəllimləri də istifadə edə biləcəklər. İl ərzində 3000-3500-ə yaxın şagird və tələbənin Mərkəzdə müxtəlif modullar üzrə təlimlərdə iştirakı gözlənilir.

Əlavə edilib ki, Tovuz rayonu üzrə hazırda 3 məktəbdə STEAM layihəsi tətbiq edilir. Layihə rayon üzrə ümumilikdə 240 şagirdi əhatə edir.

Qeyd edək ki, hazırda ölkə üzrə 100 mindən çox şagirdi əhatə edən STEAM layihəsinin növbəti tədris ilində genişləndirilməsi planlaşdırılır.

2019-cu ildən tətbiqinə başlanılan STEAM layihəsinin əsas məqsədi təhsilalanlara tənqidi, yaradıcı düşünmə, əməkdaşlıq etmə və s. kimi XXI əsr bacarıqları formalaşdırmaq, yaradıcı proses vasitəsilə öyrənmə imkanı yaratmaq, fənnləri ayrılıqda öyrətmək deyil, onları real dünyadakı tətbiqlərə əsaslanan vahid öyrənmə modelində birləşdirməkdir.

### Nazir 5 rayonun təhsil ictimaiyyəti ilə görüşüb



#### Mövcud problemlər və onların həlli ilə bağlı fikirlər səsləndirilib, təhsilin keyfiyyətinin artırılması istiqamətində atılan addımlar və görüləcək işlər müzakirə olunub

Aprelin 21-də təhsil naziri Emin Əmrullayev Şəmkir rayonuna səfəri çərçivəsində Qazax — Tovuz Regional Təhsil İdarəsinə daxil olan Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayon təhsil şöbə müdirləri, müdir müavinləri və məktəb direktorları ilə görüşüb.

Görüş zamanı sözügedən bölgələrdə təhsil sahəsi üzrə mövcud problemlər və onların həlli ilə bağlı fikirlər səsləndirilib, təhsilin keyfiyyətinin artırılması istiqamətində atılan addımlar və görüləcək işlər müzakirə olunub.

O cümlədən, görüşdə iştirak edən bölgələr üzrə IX sinif buraxılış imtahanının nəticələri, direktorların fəaliyyəti, valideyn-məktəb münasibəti və digər məsələlər ətrafında qarşılıqlı fikir mübadiləsi aparılıb.

Görüşdə yerli təhsili idarəetmə qurumlarının gələcək fəaliyyəti ilə bağlı müvafiq tapşırıqlar verilib, həmçinin təkliflər dinlənilib və suallar cavablandırılıb.